# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 20

Bakı şəhəri „7" iyun 2017 il

**"Enerji səmərəliliyi və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin hazırlanması haqqında**

Avropa İttifaqının 2016-cı ildə yaradılmış yeni "EU4Energy" Proqramının məqsədi (Avropa İttifaqının (Aİ) Azərbaycan Respublikasındakı Nümayəndəliyindən daxil olmuş və Avropa Qonşuluq Siyasəti üzrə Avropa Komissarı Yohannes Hanın 15 noyabr 2016-cı il tarixli məktubu) Şərq Tərəfdaşlığı ölkələrində və Mərkəzi Asiyada energetika məlumat idarəçiliyi vasitəsilə enerji sahəsində faktlara əsaslanan siyasətin hazırlanmasını dəstəkləməkdir.

Energetika Birliyi Katibliyi, Energetika Xartiyası Katibliyi və Beynəlxalq Energetika Agentliyi tərəfindən Avropa İttifaqının yeni "EU4Energy" Proqramı dəstəklənməkdədir.

Azərbaycan Respublikası energetika nazirinin müavini Gülməmməd Cavadov qeyd edilən proqramın ölkə üzrə əlaqələndiricisi qismində təyin edilmişdir.

24 iyun 2016-cı il tarixində Enerji Xartiyasının Katibliyi Avropa Komissiyası ilə "EU4Energy" Proqramı üçün qrant layihəsi imzalamışdır. 3-cü komponent olan "Qanunvericiliyin, normativ hüquqi bazanın və əsas enerji infrastrukturunun təkmilləşdirilməsi" layihəsinin həyata keçirilməsi üzrə əsas təşkilat Enerji Xartiyasının Katibliyidir.

24 avqust 2016-cı ildə Energetika Nazirliyində Enerji Xartiyasının Katibliyinin nümayəndələri ilə EU4Energy Texniki Yardım layihəsinin və 4 illik İşçi proqramın müzakirəsi keçirilmişdir.

Müzakirələrdə Azərbaycanda energetika sektorunun uzunmüddətli (strateji) və effektiv inkişafının prioritet istiqamətləri üzrə həyata keçiriləcək tədbirlərə geniş yer verilmişdir.

"Enerji səmərəliliyi və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununun layihəsinin Enerji Xartiyasının Katibliyi tərəfindən işlənilməsi müzakirələr zamanı qərarlaşdırılmışdır.

Enerji Xartiyasının Katibliyi 30 mart 2017-ci il tarixli məktubunda layihənin icrası barədə müəyyənləşdirilmiş iş qrafiki və müzakirə məqsədilə ekspertlərin ölkəmizə səfəri ilə bağlı məlumat vermişdir. Enerji Xartiyasının Katibliyi qeyd edilən məktubda layihənin yüksək səviyyədə hazırlanmasına dəstək olunması məqsədilə aidiyyəti dövlət təşkilatlarının nümayəndələrindən ibarət İşçi Qrupunun yaradılmasını tövsiyə etmişdir.

Qeyd edilənləri nəzərə alaraq, "Enerji səmərəliliyi və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununun layihəsinin yüksək səviyyədə hazırlanmasının təmin edilməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. "Enerji səmərəliliyi və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununun layihəsinin hazırlanmasında və müzakirəsində iştirak edilməsi məqsədi ilə aşağıdakı tərkibdə İşçi Qrupu yaradılsın:

**İşçi Qrupunun sədri:**

Gülməmməd Cavadov - Energetika nazirinin müavini, proqramın ölkə üzrə əlaqələndiricisi

**İşçi Qrupunun üzvləri:**

Xalidə Məsimova - Energetika Nazirliyinin Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri şöbəsinin müdiri

İbrahim Ağayev - Energetika Nazirliyinin Hüquqi münasibətlər şöbəsinin müdiri

| | |
|---|---|
| Amil Mürsəliyev | - Energetika Nazirliyinin Elektroenergetika şöbəsinin müdiri |
| Elxan Həşimov | - Energetika Nazirliyinin Enerji siyasəti və yanacaq-enerji-resursları şöbəsinin müdiri |
| Rafiq Əliyev | - Energetika Nazirliyinin iqtisadiyyat, elm və innovasiya şöbəsinin müdiri |
| Fazil Nağıyev | - Energetika Nazirliyinin Dövlət proqramlarının hazırlanması və icrası şöbəsinin müdiri |
| Ələsgər Həsənov | - Energetika Nazirliyinin Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri şöbəsinin müdir müavini |
| Nurəngiz Fərəcullayeva | - Energetika Nazirliyinin Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri şöbəsinin aparıcı məsləhətçisi |
| Vasif Əmiraslanov | - Azərbaycan Respublikası Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri üzrə qanunvericilik sektorunun müdiri |
| Nigar Nuriyeva | - İqtisadiyyat Nazirliyinin İqtisadi və sosial sahələrin inkişafı şöbəsinin məsləhətçisi |
| Əkbər Əsgərov | - Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli hidrometeorologiya departamentinin direktor müavini |
| Nazim Məhərrəmov | - Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ərazilərin mühəndis təminatı və elm şöbəsinin müdiri |
| Bəşir Hüseynalıyev | - Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin böyük məsləhətçisi |
| Əbülfəz Kərimov | - Dövlət Statistika Komitəsinin Energetika və ətraf mühit statistikası şöbəsinin müdir müavini |
| Fazil Quliyev | - Kənd Təsərrüfatı Nazirliyinin Texniki siyasət şöbəsinin baş məsləhətçisi |
| Zakir Quliyev | - "Azərişıq" ASC-nin Texniki departamentinin texniki şöbəsinin aparıcı mühəndisi |
| Rövşən Əmircanov | - Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin əməkdaşı |
| Vüqar Heydərov | - "Azərenerji" ASC Texniki-istehsalat şöbəsinin aparıcı mühəndisi |

Nəriman Rəhimov - "Azərenerji" ASC Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun baş elmi işçisi

Yaşar Rəcəbov - ARDNŞ Qazın yığılması və nəqli şöbəsinin böyük mühəndisi

Nurlan Mustafayev - ARDNŞ Hüquq idarəsinin hüquqşünası

Vüqar Əliyev - "Azəristiliktəchizat"ASC-nin "İstilik sistemləri və qurğuları layihə smeta elmi tədqiqat mərkəzi" MMC-nin baş mühəndisi

2. İşçi Qrupuna tapşırılsın ki, Enerji Xartiyasının Katibliyi ilə birgə Layihənin icrasının təmin edilməsi məqsədilə aidiyyəti tədbirləri həyata keçirsin, layihənin həyata keçirilməsi üçün görüşlərin təşkil edilməsinə və tələb olunan məlumatların əldə olunmasına lazımı dəstək göstərsin, müzakirə və görüşlərdə iştirakı təmin etsin.

3. Ümumi şöbə (Elmira Rzayeva) bu Əmrin surətinin nazirliyin aparatının struktur bölmələrinə çatdırılmasını təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Nazir müavini Gülməmməd Cavadov